**“Azər Konyak” şərab evində keçirilmiş yoxlamaya dair məlumat**

**(17 oktyabr 2025)**

Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları İmişli rayonu, H.Əliyev prospektində fəaliyyət göstərən "Azər Konyak" MMC-yə məxsus “Azər Konyak” şərab evində yoxlama keçirib.
Baxış zamanı “Göy-Göl”, “Gold Krım”, “Bacchus”, “Azərbaycan Qızılı” və “Украина” əmtəə nişanlı alkoqollu içkilərin Azərbaycan dilində etiket məlumatları ilə müşayiət olunmadığı, “Профессионал”, “Aloe Vera”, ”Минск”, ”Холодок”, “Organic”, “Nature Drop”, “Qərbi Azərbaycan”, “Brand Line”, “Хлебная Мера”, “Akedemik”, “Bambok”, “Украинское Золото”, “Белорусский Стандарт” əmtəə nişanlı alkoqollu içkilərdə isə ünvan və istehsal tarixlərinin qeyd olunmadığı müəyyən edilib.
İçkilərdən götürülmüş nümunələrin müayinəsi nəticəsində “Украина”, "Aloe Vera", “Bacchus" əmtəə nişanlı alkoqullu içkilərin tündlük göstəriciləri üzrə uyğunsuzluq aşkarlanıb.
Faktla bağlı müəssisə rəhbəri inzibati məsuliyyətə cəlb olunub, məhsullar dövriyyədən çıxarılıb və məhv edilib.